# Kitab bayramı

**Rusiyadan gətirilmiş 15 mindən çox kitab kitabxanalara paylandı.**

Azərbaycanda Rusiya ili çərçivəsində I Beynəlxalq Rus Kitabı Festivalının açılış mərasimi keçirildi. Festivalda iştirak etmək üçün çağdaş rus kitabının yaradılmasında müstəsna xidmətləri olan 150-yə qədər yazıçı, şair, nasir, publisist və dövlət xadimindən ibarət nüfuzlu nümayəndə heyəti Azərbaycana təşrif buyurdu. Onların arasında dünyada və Azərbaycanda yaxşı tanınan Çingiz Aytmatov, Oljas Süleymenov, Veronika Dolina, Tatyana Ustinova, Eduard Uspenski, Vera Pavlova, David Markiş , Aleksandr Ebonidze və başqaları vardı.

Qonaqlar festivalın açılış mərasimindən əvvəl Fəxri Xiyabanda Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət etdilər. Festivalın rəsmi açılış mərasimi Əl Oyunları İdman Sarayında baş tutdu. Tədbiri giriş sözü ilə açan mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkəmizdə Rusiya ili çərçivəsində keçirilən festivalın önəmindən söz açdı: "Rusiya Federasiyası Kütləvi Kommunikasiyalar Federal Agentliyi, Rusiya İnformasiya Teleqraf Agentliyi - İTAR-TASS və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən festival Azərbaycan ədəbiyyatına müsbət təsirini göstərəcək. Belə bir beynəlxalq tədbirin Azərbaycanda baş tutması hər birimiz üçün böyük şərəfdir. Məhz belə bir festivalda Azərbaycan xalqının sevimli yazarlarının təmsil olunması oxucular üçün bayram hesab olunur".

Daha sonra nazir prezident İlham Əliyevin qonaqlara və festival iştirakçılarına göndərdiyi təbrik məktubunu oxudu.

Açılış mərasimində İTAR-TASS-ın rəhbəri Vitali İqnatenko da ölkəmizdə keçirilən festivalın Azərbaycan və Rusiya üçün əhəmiyyətli olduğunu dedi.

Çingiz Aytmatov bakılı oxucuları ilə görüşmək imkanı əldə etdiyinə görə böyük şərəf hissi keçirdiyini bildirdi: "Bu bizim üçün olduqca önəmli hadisədir. Ədəbi əlaqələrin güclənməsi ədəbiyyata olduqca müsbət təsir göstərəcək. Belə tədbirlərin davamlı olması biz yazıçılara da böyük sevinc bəxş edir".

Oljas Süleymenov, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar və başqaları da festival haqda təəssüratlarını danışdılar.

Sonra Azərbaycan Yazıçılar Birliyində "Şərq və Qərb şairləri - Puşkin və Nizami ənənələri" adlı dəyirmi masa və Azərbaycan Dövlət Filarmoniyasında poeziya gecəsi təşkil olundu.

Azərbaycanın tanınmış incəsənət ustaları qonaqlar və şəhər sakinləri qarşısında konsert proqramı ilə çıxış etdilər. Rusiyalı qələm sahibləri və naşirlərin Bakı Slavyan Universitetində tələbələrlə, Xaçmaz, Şamaxı və Quba rayonlarında ictimaiyyət nümayəndələri ilə görüşləri oldu. Rusiyadan gətirilmiş 15 mindən çox kitab isə festival başa çatandan sonra təmannasız olaraq Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kitabxanalara verildi. Əl Oyunları Sarayında kitabların satış-sərgisi təşkil olundu.

**Ş.ƏKBƏROVA**